# Niyə məhz Azərbaycan?

## Ölkəmiz MDB Oyunları tarixinin ən mükəmməl yarışına hazırdır

**Bu gün Azərbaycanın idman həyatı üçün çox əlamətdar olacaq. Son illərdə mühüm siyasi, iqtisadi və humanitar forumlara, konfranslara, idman və musiqi yarışmalarına evsahibliyi etməklə beynəlxalq tədbirlər məkanına çevrilən ölkəmizdə III MDB Oyunları başlayacaq. 12 ölkədən 1619 idmançının və 2313 nümayəndə heyətinin iştirak etdiyi Oyunlar idmansevərlər üçün əsl bayramdır.**




Gəncə, Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndidə bir-birindən möhtəşəm arenalarda qalib adı uğrunda gərgin mübarizə tamaşaçıların böyük marağına səbəb olacaq. Oyunlara hazırlıq məqsədilə beynəlxalq standartlara uyğun mühüm layihələr icra olunub, infrastruktur dəyişiklikləri edilib, müasir idman mərkəzlərində yarışlara hazırlıq istiqamətində işlər yüksək səviyyədə görülüb.

III MDB Oyunlarının bölgələrimizdə keçirilməsi bu təşkilata üzv ölkələrin Azərbaycana böyük etimadının açıq göstəricisidir. Ölkəmizin hərtərəfli və dinamik inkişafı, ictimai-siyasi sabitlik, mühüm beynəlxalq tədbirlərin keçirilməsində əldə olunan zəngin təcrübə, müasir idman infrastrukturunun yaradılması, eləcə də idmançılarımızın beynəlxalq yarışlarda əldə etdiyi uğurlar Oyunların bir neçə şəhərdə təşkil olunmasını şərtləndirən başlıca faktorlardan biridir.





Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizin hər bir bölgəsində müasir idman komplekslərinin tikilərək yeniyetmələrin, gənclərin ixtiyarına verilməsi respublikamızda idmanın inkişafını təmin edib. Eyni zamanda bir-birini əvəzləyən idman yarışları Bakının və respublikamızın digər bölgələrinin daha böyükmiqyaslı yarışlara evsahibliyi etmək imkanlarını artırıb. Belə mötəbər idman yarışlarına evsahibliyi etmənin arxasında məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır. İndi Azərbaycanda keçirilən Avropa, dünya çempionatları silsilə xarakter daşıyır. Hər il müxtəlif beynəlxalq turnirlərin məhz Azərbaycanda keçirilməsi, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb.




Atletlərimiz MDB Oyunlarında getdikcə daha çox medal əldə edərək hər dəfə milli rekordu təzələyiblər. Ümumiyyətlə, Azərbaycan MDB Oyunlarında bu göstəriciyə görə yarışda iştirak edən ölkələr arasında medal sıralamasında beşinci pillədə qərarlaşıb. Qazaxıstan (159 medal: 25 qızıl, 49 gümüş, 85 bürünc) dördüncü, Özbəkistan (197 medal: 51 qızıl, 57 gümüş, 89 bürünc) üçüncü, Belarus (305 medal: 56 qızıl, 110 gümüş, 139 bürünc) ikinci, Rusiya (503 medal: 263 qızıl, 131 gümüş, 109 bürünc) birinci sıradadır.

I MDB Oyunları 2021-ci ildə Rusiyanın Kazan şəhərində təşkil olunub. Həmin vaxt Azərbaycan təmsilçiləri 60 medal əldə ediblər. Onlardan 15-i qızıl, 16-sı gümüş, 29-u bürünc ayarlıdır. Ölkə medal sıralamasında dördüncü olub. II MDB Oyunları isə 2023-cü ildə Belarusun paytaxtı Minskdə keçirilib. Ölkəmizin idmançıları bu dəfə 62 mükafatla (10 qızıl, 17 gümüş, 35 bürünc) medal sıralamasında dördüncü yerdə qərarlaşıb.



Sentyabrın 28-dən oktyabrın 8-dək yeddi şəhərin 12 arenasında 23 idman növü üzrə yarışların keçiriləcəyi III MDB Oyunlarının açılış və bağlanış mərasimləri Gəncə şəhər stadionunda baş tutacaq. Ən böyük heyətə Azərbaycan sahibdir - 349 idmançı. Sonrakı sıralarda isə Rusiya, Qazaxıstan, Özbəkistan, Belarus, Tacikistan, Türkmənistan və Qırğızıstan gəlir. Yarışlarda 246 dəst medal uğrunda mübarizə aparılacaq.

İndi hamı Azərbaycanın I Avropa Oyunlarında, IV İslam Həmrəyliyi Oyunlarında müəyyən edilmiş səviyyəsini III MDB Oyunlarında bir qədər də artıracağını gözləyir. Artıq ölkəmiz ən böyük yarışları ən yüksək səviyyədə keçirmək bacarığını məharətlə sübuta yetirib və MDB Oyunlarına hazırlıq prosesi də bu yolda qazanılmış təcrübəyə əsaslanır.

Böyük beynəlxalq yarışların keçirilməsi və ən yüksək səviyyədə təşkili cəhətdən artıq kifayət qədər təcrübəyə malik olan ölkəmiz 10 il öncə tarixdə ilk dəfə təşkil olunan I Avropa Oyunlarında nümayiş etdirdiyi təşkilatçılıq işlərinə görə dünyanın diqqətini üzərinə çəkmişdi. Möhtəşəm idman bazalarına, bütün əlaqədar təşkilatların birgə səylə nümunəvi fəaliyyətinə heyranlıqlarını gizlədə bilməyən xarici ölkə mütəxəssisləri, milli olimpiya komitələrinin rəhbərləri və üzvləri, ayrı-ayrı beynəlxalq federasiyaların nümayəndələri gələcəkdə öz ölkələrində mötəbər beynəlxalq yarışlar keçirməyə hazırlaşarkən Azərbaycanın təcrübəsindən istifadə edəcəklərini söyləmişdilər.




Eyniliklə bu kimi fikirlərə III MDB Oyunlarına gedən hazırlıq prosesi çərçivəsində də rast gəlmək mümkündür. Azərbaycan təkcə MDB aləmində deyil, bütün dünyada həmrəyliyin və əmin-amanlığın təntənəsinə xidmət edən bu idman tədbirini sülh, sabitlik və yüksək bayram ovqatında keçirməklə beynəlxalq ictimaiyyətə növbəti dəfə belə nüfuzlu idman tədbirlərini yüksək səviyyədə təşkil etmək əzmini nümayiş etdirəcək.



***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.-2025.- 28 sentyabr (№208).- S.15.